*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2026, №1* *ISSN: 2664-5432*
*Səhifə: 172-177*
https://doi.org/10.59849/2664-5432.2026.1.172

**Kəmalə ƏLİYEVA***

# MORFOLOGİYA VƏ SİNTAKSİSİN QARŞILIQLI ƏLAQƏ PROBLEMİ

**XÜLASƏ**

Dilin qrammatik quruluşu morfologiya və sintaksisin qarşılıqlı əlaqəsi əsasında formalaşır. Morfologiya sözün quruluşunu, sintaksis isə sözlərin cümlə daxilində qarşılıqlı əlaqələrini öyrənir. Müasir dilçilikdə bu iki sahə arasındakı əlaqə müxtəlif nəzəriyyələr əsasında təhlil edilir; funksional morfologiya sintaktik əlaqələri, sintaktik quruluş isə morfoloji kateqoriyaları tənzimləyir. Morfologiya və sintaksisin qarşılıqlı əlaqə problemi yalnız təsviri qrammatik məsələ deyil, həm də nəzəri dilçilikdə metodoloji problem kimi tədqiq edilir. Bu problem dil vahidlərinin forma və funksiya münasibətini izah edən ümumi qrammatik modelin formalaşdırılması zərurətini ortaya qoyur.

**Açar sözlər:** *Azərbaycan dili, dil sistemi, morfologiya, sintaksis, qarşılıqlı əlaqə, morfosintaksis.*

Müasir dilçilikdə qrammatikanın iki əsas bölməsi – morfologiya və sintaksis ənənəvi dilçilikdə müstəqil sahələr olsa da, bu sahələr arasındakı qarşılıqlı əlaqə və funsional asılılıq ən mürəkkəb və aktual məslələrindən biridir.

XX əsrdən başlayaraq, müxtəlif dilçilik məktəblərində morfologiya və sintaksis arasındakı vəhdət müxtəlif konsepsiyalar əsasında izah edilmiş və yeni nəzəriyyələr formalaşmışdır. Həmin nəzəriyyələr əssaında aparılan müqayisəli araşdırmalar morfoloji kateqoriyaların sintaktik quruluşu və sintaktik əlaqələrin morfoloji kateqoriyaları formalaşdırdığını təsdiq etməklə, dilçiliyin morfosintaksis sahəsini mühüm bir tədqiqat obyektinə çevirmişdir.

Bu baxımdan, müxtəlif dilçilik məktəblərində fərqli yanaşmalar mövcuddur: Struktur dilçilikdə morfologiya və sintaksisi müstəqil sahələr kimi tədqiq edilsələr də, onların qarşılıqlı əlaqəsi inkar edilmir – Dil vahidləri yalnız bir sistem daxilində bir-birilə əlaqədə müəyyən olunur və qrammatik kateqoriyalar yalnız cümlə daxilində funksiyasını tam şəkildə nümayiş etdirə bilir; Generativ dilçilikdə sintaktik struktur aparıcı hesab olunur və morfoloji xüsusiyyətlərin əhəmiyyətli hissəsi sintaktik mexanizmlər vasitəsilə izah edilir; Funksional dilçilikdə morfoloji kateqoriyalar kommunikativ məqsədlərə xidmət edən sintaktik vahidlər kimi izah olunur; Koqnitiv dilçilikdə morfoloji və sintaktik quruluş vahid konseptual sistem kimi qəbul edilir – Morfologiya söz daxilində əlaqələri, sintaksis sözlər arasındakı əlaqəni tədqiq etsə də, hər iki sahə vahid qrammatik sistemin tərkib hissəsidir.

* Bakı Dövlət Universiteti, doktarant. Email: kemale655@gmail.com

Morfologiya sintaksisin ayrılmaz hissəsidir. Bu fərqli nəzəriyyələr ortaq bir məxrəcdə birləşir və bu məxrəcdə morfologiya və sintaksis bir-birini tamamlayan struktur kimi qəbul olunur.

Morfoloji kateqoriyalar sintaktik strukturu müəyyən edir, yoxsa sintaksis struktur morfoloji formaları idarə edir? Hal, şəxs və zaman morfoloji kateqoriyaları müstəqil qrammatik sistem kimi çıxış edir, yoxsa sintaktik münasibətlərin nəticəsidir? və s. bu kimi suallar qarşılıqlı əlaqə problemi kimi tədqiq olunmaqdadır.

Morfologiya və sintaksisin qarşılıqlı əlaqə problemi dil vahidlərinin forması (morfologiya) ilə funksiyası (sintaksis) arasında sabit bir istiqamət müəyyən etməyin mümkün olmamasındadır. Bəzi hallarda morfoloji göstəricilər sintaktik funksiyanı müəyyənləşdirir, digər hallarda isə sintaktik struktur morfoloji formanı tələb edir. Cümlədəki qrammatik əlaqələr morfoloji kateqoriya ilə tam izah edilə bilər. “Müxtəlif morfoloji göstəricilər sintaktik quruluşda funksionallaşır” [Иванова, 2011].

Qrammatik quruluşun əsas komponentləri hesab edilən morfologiya və sintaksis arasında mövcud olan əlaqə müasir dilçiliyin ən mühüm nəzəri problemlərindən biridir. Mürəkkəb və çoxsəviyyəli dil sisteminin fonetik, leksik, morfoloji və sintaktik səviyyələri bir-birindən təcrid olunmuş şəkildə deyil, qarşılıqlı əlaqə və asılılıq şəraitində fəaliyyət göstərir. Morfosintaksis funksional qrammatikanın tədqiqat obyekti olaraq, semantik xüsusiyyətləri, tipoloji-konstruktiv aspektləri, morfoloji-sintaktik interpretasiyanı, paradiqmatik və sintaqmatik tərəfləri və “sintaksemlərin qlosemlərdən təşkili məsələlərini öyrənir”[Вардуль, 1977, s. 215]

Ənənəvi dilçilikdə morfologiya sözün quruluşunu, sintaksis isə sözlərin birləşmə və cümlə quruluşunu öyrənən müstəqil sahələr kimi təqdim olunur. Sonrakı dövrlərdə funksional, struktur və generativ dilçilik nəzəriyyələrinin nümayəndələri bu bölgünün nisbi xarakter daşıdığını tədqiq etmişlər. Xüsusilə, morfosintaksis anlayışının formalaşması morfoloji və sintaktik hadisələrin vahid sistem daxilində araşdırılmasına əsaslandırılır. “Sintaktik arxetip müəyyən morfoloji dayağı olan modelə əsaslanır. Deməli, tarixi sintaksis tarixi morfologiya ilə uzlaşır. Bu morfoloji dayağın tarixi dəyişməsi sintaktik vahidin tarixi dəyişməsinin göztəricisidir” [Гаджиева, 1973,s.321] .

Azərbaycan dilçiliyində morfologiya və sintaksis uzun müddət qrammatikanın iki müstəqil sahəsi kimi tədqiq edilsə də, aparılmış elmi araşdırmalar göstərir ki, bu kateqoriyalar funksional baxımdan ayrılmazdır. Ə.Dəmirçizadənin hal kateqoriyasına dair fikirləri, M.Hüseynzadənin konsepsiyası, Ə.Abdullayevin sintaktik əlaqələr nəzəriyyəsi, A.Qurbanovun dilin sistem xarakterinə dair elmi baxışları və Q.Kazımovun elmi yanaşmasına görə morfoloji göstəricilər sintaktik əlaqələrin formalaşmasında, sintaktik quruluş isə morfoloji kateqoriyaların funksionallaşmasında həlledici rol oynayır. Bu baxımdan, morfologiya və sintaksisin qarşılıqlı əlaqəsi Azərbaycan dilçiliyində morfosintaktik sistem kimi tədqiq edilməkdədir.

Hal şəkilçiləri, şəxs sonluqları və digər morfoloji kateqoriyalar yalnız qrammatik forma deyil, sintaktik qurulrşun təşkil edən əsas komponentlərdir.

- sintaksis qrammatikanın əsas komponentidir;
- morfoloji xüsusiyyətlər sintaktik struktur daxilində mümkündür;
- şəxs, kəmiyyət, hal, zaman kateqoriyaları sintaktik əlaqələri formalaşdırır.

Azərbaycan dilçiliyində morfologiya və sintaksisin qarşılıqlı əlaqəsini müstəqil tədqiqat sahəsi kimi elmi əsaslarla formalaşdıran alimlərdən biri Ə.Dəmirçizadə olmuşdur; o, morfologiya və sintaksisi bir-birindən təcrid olunmuş sahələr kimi deyil, vahid qrammatik sistemin qarşılıqlı əlaqədə olan komponentləri kimi izah edir. O, ismin hallarına yalnız sözün formasını dəyişən formal-morfoloji vahid kimi deyil, sintaktik əlaqələrin (xüsusilə idarə əlaqəsinin) reallaşma mexanizmi kimi yanaşmış və bu konsepsiyanı özünün sintaksisə dair dərslik və monoqrafiyalarında əsaslandırmışdır (Dəmirçizadə, 1967). "Morfoloji kateqoriyalar yalnız sözün daxili quruluşunu xarakterizə etmir, eyni zamanda cümlədə sintaktik funksiyanın müəyyənləşdirilməsində iştirak edir. Hal kateqoriyası morfoloji hadisə olmaqla yanaşı, sintaktik əlaqələrin də əsas göstəricilərindən biridir.

Məsələn, Azərbaycan dilində isimlərin hal şəkilçiləri yalnız morfoloji kateqoriya olmayıb, eyni zamanda cümlədə sintaktik münasibətlərin ifadəsinə xidmət edir. Ümumiyyətlə, Azərbaycan dilində morfoloji kateqoriyaların əksəriyyəti sintaktik əlaqələrin qurulmasında iştirak edir. Məsələn, hal kateqoriyası isimlərin cümlədə yerinə yetirdiyi sintaktik funksiyaları müəyyənləşdirir:

1. Müəllim ***dərsi*** izah edir.
2. Abiturient ***imtahana*** hazırlaşır.
3. Telefon ***masanın üstündə***dir.

Nümunələrdən göründüyü kimi, təsirlik (***dərsi***), yönlük (***imtahana***) və yerlik (***masanın üstündə***) hal müxtəlif sintaktik əlaqələrin ifadə vasitəsidir. Xüsusilə hal sistemi cümlə üzvlərinin funksional mövqeyini müəyyənləşdirir – təsirlik hal obyekti, yönlük hal istiqaməti, yerlik hal isə məkanı bildirir. Beləliklə, morfoloji göstəricilər cümlə strukturunun formal deyil, funksional təşkilində iştirak edir.

Azərbaycan dilində hal şəkilçilərinin sintaktik funksiyası, xəbərin şəxs və zaman göstəriciləri, feili sifət və feili bağlama konstruksiyaları, məsdər tərkibləri, qoşmaların hal sistemi ilə qarşılıqlı əlaqəsi morfoloji və sintaktik əlaqələrin bir-birindən ayrı tədqiqatının mümkünsüzlüyünü sübut edir. "Nitq hissələri əsas sintaktik vəzifəsini dəyişdikdə, onların mənasında da müəyyən dəyişiklik yaranır; isim təyin vəzifəsində işləndikdə mənasında atributivlik əmələ gəlir, sifət mübtəda vəzifəsində işləndikdə substantivləşir, sifət zərflik vəzifəsində adverbiallaşır, feil təyin vəzifəsində işlənmək üçün feili sifət şəkilçisi, zərflik vəzifəsində işlənmək üçün feili bağlama şəkilçisi, mübtəda, tamamlıq vəzifələrində işlənmək üçün məsdər şəkilçisi qəbul edir ( Kazımov, 2010,:s.39)

Muxtar Hüseynzadə nitq hissələrinin yalnız formal xüsusiyyətlərini deyil, onların sintaktik funksiyalarının araşdırılması ilə əlaqəli tədqiq edir: "Sözlərin nitq hissələri üzrə təsnifində sintaktik vəzifənin nəzərə alınması vacibdir" (Hüseynzadə, 2007:, s.16). "Söz qrammatik məna kəsb etdikdə qrammatik formaya yiyələnir və

müvafiq sintaktik vəzifə daşıyır. Bütövlükdə, qrammatik məna, ilk növbədə, cümlədə başqa sözlərlə əlaqədə müəyyənləşən mənadır. Qrammatik mənanın həm morfoloji, həm də sintaktik ifadə vasitələri vardır. Qrammatik mənanın morfoloji ifadə vasitəsinə sözlərin dəyişməsi (şəkilçilər və vurğular), qrammatik mənanın sintaktik ifadə vasitələrinə isə sözlərin bir-birinə yanaşması, intonasiya və sözlərin sırası daxildir" (Hüseynzadə, 2007: s.16). Ə.Abdullayevə görə, sintaktik əlaqələrin əksəriyyəti morfoloji vasitələr hesabına reallaşır. "Morfologiya həmişə sintaksislə, sintaksis isə morfologiya ilə əlaqəli olur. Məlum olduğu üzrə, hər hansı cümlə üzvü əksərən müəyyən bir nitq hissəsi ilə ifadə olunur. Bu və ya digər nitq hissəsi çox zaman müəyyən cümlə vəzifəsində işlənir" (Abdullayev, Seyidov, Həsənov, 2007: s.10). A.Qurbanov isə qrammatik sistemi qarşılıqlı əlaqədə olan alt sistemlərdən ibarət vahid mexanizm kimi izah edir. Onun fikrincə, fonetika, leksikologiya, morfologiya və sintaksis bir-birindən ayrı öyrənilsə də, real nitqdə onlar vahid sistem təşkil edir – bu, müasir morfosintaksis anlayışını izah edir. "Morfologiyanın nitq fəaliyyəti sistemində yerini öyrənmək üçün, hər şeydən əvvəl, onun sintaksislə sərhəddini müəyyənləşdirmək vacibdir" (Kazımov, 2010: s.24). Azərbaycan dilinin tarixi inkişaf prosesində morfoloji dəyişikliklər sintaktik quruluşun inkişafına təsir etmişdir. Beləliklə, qrammatik səviyyələrin inkişafı paralel proses kimi qəbul edilir.

Morfologiya ilə sintaksisin əlaqəsi ilk növbədə qrammatik formaların sintaktik funksiyalarında özünü göstərir. Morfologiya sözün qrammatik quruluşunu, söz dəyişməsini və qrammatik kateqoriyalarını, sintaksis isə söz birləşmələrinin və cümlələrin quruluşunu, onların semantik və qrammatik əlaqələrini tədqiq edir. Qrammatik əlaqələr morfoloji baxımdan əsas, yaxud asılı komponentdə, və ya hər iki komponentdə ifadə olunur (Nichols, 1986: s.56).

Azərbaycan dilində morfoloji göstəricilər sintaktik münasibətlərin ifadəsində xüsusi əhəmiyyət daşıyır. "Sözün forması morfologiyaya, funksiyası isə sintaksisə aid olur" (Abdullayev, Seyidov, Həsənov, 2007: s.11). Bu mənada, hal, mənsubiyyət, şəxs və zaman kateqoriyaları cümlə üzvlərinin funksional mövqeyini müəyyənləşdirən əsas vasitələrdəndir. Azərbaycan dilçiliyində morfologiya və sintaksisin qarşılıqlı əlaqəsi morfosintaktik kateqoriyalar, funksional qrammatika, mətn sintaksisi, koqnitiv dilçilik, korpus dilçiliyi, kompüter dilçiliyi üzrə tədqiq edilir. "Morfosintaktik tədqiqat daha konkret olaraq cümlə üzvlərinin morfologiyası istiqamətində aparıla bilər və heç də cümlə üzvlərinin ifadə vasitələrini araşdırmaqla məhdudlaşmamalıdır. Burada funksiya ilə onu reallaşdıran nitq hissəsi arasında uyğunluğun dərəcəsi (o cümlədən, funksiyanın adekvat və ya müxtəlif nitq hissələri ilə ifadəsində iyerarxiya) ilk növbədə tədqiq olunmalıdır…" (Əhmədov, 1987, s. 52)

Aparılan təhlillər göstərir ki, morfologiya və sintaksis dilin qrammatik sisteminin qarşılıqlı şəkildə bir-birindən asılı olan komponentləridir. Morfoloji kateqoriyalar sintaktik funksiyaların reallaşmasına, sintaktik quruluş isə morfoloji vasitələrin semantik və funksional yükünün müəyyənləşməsinə xidmət edir.

Azərbaycan dilinin aqqlütinativ quruluşu bu qarşılıqlı əlaqənin daha sistemli şəkildə müşahidə olunmasına imkan verir. Şəkilçilərin ardıcıl qoşulması sintaktik əlaqələrin dəqiq ifadəsinə imkan yaradır və söz sırası nisbətən sərbəstdir.

Morfologiya və sintaksisin qarşılıqlı əlaqəsi yalnız təsviri qrammatik məsələ deyil, həm də nəzəri dilçilikdə metodoloji problem kimi çıxış edir. Bu problem dil vahidlərinin forma və funksiya münasibətini izah edən ümumi qrammatik modelin formalaşdırılması zərurətini ortaya qoyur. Morfologiya və sintaksis arasındakı keçid dinamik və funksional xarakter daşıyır. Nəticə etibarilə morfologiya və sintaksisin qarşılıqlı əlaqə problemi müasir dilçilikdə xüsusi bir sahənin – morfosintaksisin həm nəzəri dilçilik, həm də Azərbaycan dilinin qrammatik sisteminin tədqiqi baxımından mühüm əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT:

1. Abdullayev Ə, Seyidov Y, Həsənov A. Müasir Azərbaycan dili, IV hissə. Sintaksis. Bakı, 2007. - 424 s.
2. Cəlilov F.A. Azərbaycan dilinin morfonologiyası / Cəlilov F.A. – Bakı: – 1988. – 250 s
3. Dəmirçizadə Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı – 1967, 51 s.
4. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. I hissə. Bakı – 1984, 307 s.
5. Dəmirçizadə. Azərbaycan dilində uzlaşma. Bakı, 1950, s.
6. Əhmədov İ.Ə. Azərbaycan dili morfosintaksisinin bəzi məsələləri (məsələnin qoyuluşu) // Azərbaycan dilində sintaktik konstruksiyalar. Bakı, ADU nəşri, 1987, s. 52-55. -107 s
7. Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. Bakı, "Şərq-Qərb", 2007. 280 s.
8. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. III hissə, "Maarif", Bakı, 1983.
9. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya, 2010, s.
10. Kazımov Q. Seçilmiş əsərləri. Morfologiya/Kazımov Q. – Bakı: Nurlan, – 2010. – 544 s
11. Müasir Azərbaycan dili. II hissə, EA nəşri, Bakı, 1980.
12. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya. Bakı Universitetinin Nəşriyyatı, 2006. – 371 s
13. Вардуль И.Ф. Основы описательной лингвистики. Москва, Наука, 1977, - 351 с.
14. Гаджиева Н. З. Основные пути развития синтаксической структуры тюркских языков. М., Наука, 1973,. - 408 с
15. Иванова А.М. Проблемы морфосинтаксиса в чувашском языкознание. Дисс., на соискание доктора филолог.наук. Чебоксары, 2011. -384 с
16. *Nichols J.* Head-marking and dependent-marking grammar // Language, 1986. Vol.62. N 1. P.56-119.

## THE PROBLEM OF THE INTERRELATION BETWEEN MORPHOLOGY AND SYNTAX


### ABSTRACT

The grammatical structure of a language is formed through the interaction of morphology and syntax. Morphology studies the structure of words, whereas syntax examines the relationships among words within a sentence. In contemporary linguistics, the interaction between these two domains is analyzed from the perspective of various theoretical approaches: functional morphology shapes syntactic relations, while syntactic structure regulates morphological categories. The interaction between morphology and syntax is not only a matter of descriptive grammar but also a methodological issue in theoretical linguistics. This issue highlights the need to develop a general grammatical model that explains the relationship between the form and function of linguistic units.


**Keywords**: *Azerbaijani language, language system, morphology, syntax, interaction, morphosyntax.*

## ПРОБЛЕМА ВЗАИМОСВЯЗИ МОРФОЛОГИИ И СИНТАКСИСА


### РЕЗЮМЕ

Грамматическая структура языка формируется на основе взаимодействия морфологии и синтаксиса. Морфология изучает строение слова, тогда как синтаксис исследует взаимосвязи слов в составе предложения. В современном языкознании взаимодействие этих двух областей анализируется с позиций различных теоретических подходов: функциональная морфология обусловливает синтаксические связи, а синтаксическая структура регулирует морфологические категории. Взаимодействие морфологии и синтаксиса представляет собой не только проблему описательной грамматики, но и важную методологическую проблему теоретического языкознания. Эта проблема обусловливает необходимость формирования общей грамматической модели, объясняющей соотношение формы и функции языковых единиц.


**Ключевые слова:** *азербайджанский язык, языковая система, морфология, синтаксис, взаимосвязь, морфосинтаксис.*